## Əhalinin gəlirləri

İlkin məlumatlara görə, 2020-ci ildə ölkə əhalisinin nominal gəlirləri *55726.1* milyon manat təşkil etmişdir. Əhalinin hər nəferinə düşən gəlirlər orta hesabla *5587.6* manat və ya ayda orta hesabla 465.6 manat olmuşdur.

Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında *50689.6* milyon manatlıq (onun hər nəferə düşən həcmi 5082.6 manat) vəsait qalmışdır.



**Əmək haqqı**

2020-ci ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 2019-cu ilin müvafiq dövrünə nisbətən 12.9 faiz artaraq 703.5 manat təşkil etmişdir. Əmək haqqı neft-qaz sektorunda 3331.6 manat, qeyri neft-qaz sektorunda 646.9 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əmək haqları 623.9 manat, özəl müəssisələrdə çalışan işçilərin əmək haqları isə 803.0 manat olmuşdur.

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əmək haqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.



**Demoqrafik vəziyyət**

Ölkə əhalisinin sayı ilin əvvəlindən 56292 nəfər və ya 0.6 faiz artaraq 2020-ci il dekabr ayının 1-i vəziyyətinə 10123400 nəfərə çatmışdır. Bir kvadrat kilometrə düşən əhalinin sıxlığı 117 nəfər olmuş, əhalinin ümumi sayının 52.8 faizini şəhər, 47.2 faizini kənd sakinləri, 49.9 faizini kişilər, 50.1 faizini isə qadınlar təşkil edir.

2020-ci ilin yanvar-noyabr ayları ərzində ölkə üzrə 116454 doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 12.7 təşkil etmişdir. Doğulan körpələrin 53.3 faizi oğlan, 46.7 faizi isə qız uşaqlarından ibarət olmuşdur.

**Məşğulluq**

2020-ci il yanvarın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5252.5 min nəfər olmuş, onlardan 4876.6 min nəfərini məşğul əhali təşkil etmişdir.

2020-ci il dekabr 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1684.5 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 917.8 min nəfər, qeyri-dövlət sektorunda isə 766.7 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft-qaz sektorunda 33.9 min nəfər, qeyri-neft sektorunda isə 1650.6 min nəfər çalışmışdır.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 24.5 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7.8 faizi tikintidə, 7.7 faizi emal sənayesində, 3.5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2.0 faizi mədənçıxarma sənayesində, 1.7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1.8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olmuşdur.

2020-ci ilin yanvar-noyabr aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 139.0 saat təşkil etmişdir.